| 4. Əmək prosesinin xüsusiyyətlərindən və rejimindən asılı olan zərərləri kateqoriyalara (qruplara) bölür. |
| **Təlim nəticəsi 5: İstehsalat səs-küylərinin və titrəyişlərin insan orqanizminə təsirini bilir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. İstehsalat səs-küylərinin təsnifatını şərh edir. |
| 2. İşçilərin orqanizminə səs-küylərin təsirini izah edir. |
| 3. Səs-küylərin insan orqanizminə xoşagəlməz təsirinin profilaktikasını təsvir edir. |
| 4. Müxtəlif güclü və tezlikli səslərin nizamsız (xaotik) birləşməsindən səs-küy (gurultu) yaranmasını müəyyən edir. |
| **Təlim nəticəsi 6: Ətraf mühitin mühafizəsi və yanğınsöndürmə vasitələrinə dair ilkin** |

| |
|---|
| **tədbirləri bilir və həyata keçirməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Ekoloji qanunları təsvir edir. |
| 2. Ekoloji şəraitin yaxşılaşdırılmasına yardımçı olan üsulları sadalayır. |
| 3. Müəssisədə olan yanğınsöndürmə vasitələrindən düzgün istifadə edir. |
| 4. Yanğın baş verərkən yanğın təhlükəsizliyinin əsas və fərdi ehtiyat tədbirləri ilə otaqlardan çıxma qaydalarını uyğunlaşdırır. |
| 5. İşləri başa çatdırdıqdan sonra ətraf mühitin qorunması naminə ərazini təmizləyir. |

| |
|---|
| **Modulun adı: Sxem, çertyoj və qrafiki işlər** |
| **Modulun kodu: 8** |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə çertyojun qaydaya salınma üsulları, həndəsi qurmalar, texniki rəsmin xüsusiyyətləri, naturadan çertyojun rənglənmə prosesi, kəsik və kəsimlər haqqında biləcək və onları tətbiq etməyi bacaracaqdır. |
| **Təlim nəticəsi 1: Çertyojların tərtib edilməsi qaydalarını və həndəsi qurmaları bilir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Çertyojların formatlarını, əsas yazı və çertyojların miqyaslarını, xətlərin növlərini sadalayır. |
| 2. Çertyojlarda şriftlərin, yazıların və ölçülərin qoyulmasını təsvir edir. |
| 3. Parçaların, bucaqların, çevrələrin bölünməsini, qövsün radiusunun tapılmasını, müxtəlif qovuşmaların və lekal əyrisinin qurulmasını göstərir. |
| **Təlim nəticəsi 2: Çertyojlarda görünüşləri, kəsik və kəsimləri bilir, onları ayırd etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Çertyojlarda görünüşlərin növlərini və onların hər birinin ötürdüyü məlumatları ayırd edir. |
| 2. Əşyanın daxili quruluşunu aşkar edən kəsimlər haqqında məlumat verir. |
| 3. Kəsimlərin tətbiq sahələrini, işarə olunmasını, onların növlərini ayırd edir. |
| 4. Kəsiklərdə və kəsimlərdə materialların qrafiki işarələrini qoyur. |
| **Təlim nəticəsi 3: Aksonometrik proyeksiyaların mahiyyətini bilir, sadə fiqurların aksonometrik proyeksiyalarını qurmağı bacarır.** |
| **Qiymətləndirmə meyarları** |

| |
|---|
| 1. Proyeksiyalama metodlarını, perspektiv, aksonometrik təsvirin və çertyojun mahiyyətini izah edir. |
| 2. Yastı fiqurların (düzbucaqlı, altıbucaqlı, çevrə) aksonometrik proyeksiyalarını qurur. |
| 3. Cismin aksonometrik proyeksiyalarının qurulmasını təsvir edir. |
| **Təlim nəticəsi 4: Naturadan və çertyojdan detalı çəkməyi bacarır, onlarda işıq-kölgə və kölgələrin ştrixlənməsini, tuş və müxtəlif boyalarla rənglənməsini bilir** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Texniki rəsmin xüsusiyyətlərini izah edərək müstəvi fiqurları (üçbucaq, kvadrat, düzbucaq, altıbucaqlı, dairə) çəkir. |
| 2. Həndəsi fiqurların (kub, prizma, piramida, silindr, konus, kürə) qurulması ardıcıllığını izah edir. |
| 3. Texniki şəkildə işıq-kölgə və kölgələrin ştrixlənməsinin yerinə yetirilmə ardıcıllığına riayət edir. |
| 4. Rəsmin çəkilməsi mərhələlərini və rənglənməsini təsvir edir. |

| |
|---|
| **Modulun adı: Dağ-qazma müəssissələrində geoloji və markşeyder işləri** |
| **Modulun kodu: 9** |
| **Modulun ümumi məqsədi**: Bu modulu tamamladıqdan sonra tələbə faydalı və yeraltı qazıntıların mənşəyini, onların növlərini, xassələrini və qazıntı işlərinin aparılması qaydalarını biləcək, onlara uyğun alət və geodezya cihazlarından istifadə etməyi və iş əsnasında fotoçəkiliş və fotolaboratoriya işlərinə hazırlıq görməyi bacaracaqdır. |
| **Təlimin nəticəsi 1. Yerin layları, maqmatik və törəmə kütlələri, onları təşkil edən süxurlar və tektonik pozulmalar haqqında bilir** |
| **Qiymətləndirmə meyarları:** |
| 1. Yerin quruluşu haqqında biliklərini nümayış etdirir. |
| 2. Çökmə süxurların yaranmasını və ümumi təsnifatını izah edir. |
| 3. Maqmatik süxurları tərkibinə və yaranma şəraitinə görə ayırd edir. |
| 4. Metamorfik süxurların əmələgəlmə səbəblərini və onların mineral fasiyalarını sadalayır. |
| 5. Layların müxtəlif dislokasiyalara və tektonik pozulmalara məruz qalaraq əyilməsi və qırılması barədə yetərincə məlumatlıdır. |
| 6. Geoloji cisimlərin yatım elementlərini dağ - mədən kompası ilə ölçmək ardıcıllığını |

| |
|---|
| sadalayır. |
| **Təlim nəticəsi 2: Faydalı qazıntıların axtarışı, kəşfiyyatı, çıxarılması və emalı üsullarını bilir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Faydalı qazıntıların axtarış işləri və axtarış amilləri ilə bağlı biliklərini nümayiş etdirir. |
| 2. Kəşfiyyat işlərinin mərhələlərini izah edir. |
| 3. Faydalı qazıntıların çıxarılma üsullarını ayrıd edə bilir. |
| 4. Faydalı qazıntıların zənginləşdirilmə metodları və emal üsulları haqqında məlumatlıdır. |
| **Təlim nəticəsi 3: Faydalı qazıntılar, onların növləri, təsnifatı və Azərbaycanda yayılması barədə yetərincə məlumat və izahat verə bilir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Faydalı qazıntılar haqqında ümumi məlumatları və anlayışları sadalayır. |
| 2. Azərbaycanın metal filizləri haqqında biliklərini nümayış etdirir. |
| 3. Azərbaycanın qeyri filiz faydalı qazıntılarını ayırd edərək, onları sadalayır. |
| **Təlim nəticəsi 4: Dağ qazmalarının növlərini və keçirilmə qaydalarını bilir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Dağ qazmalarının təsnifatı və təyinatlarını təsvir edir. |
| 2. Yerüstü açıq dağ qazmalarının təyinatlarını izah edir. |
| 3. Yeraltı dağ qazmalarının məqsədlərini müəyyən edir. |
| 4. Şaquli və maili yeraltı dağ qazmalarını ayrıd edə bilir. |
| **Təlim nəticəsi 5: Geodeziya alətlərinin xüsusiyyətlərini bilir və iş zamanı alətləri işçi vəziyyətinə gətirməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Geodeziyanın bölmələri haqqında biliklərini nümayiş etdirir. |
| 2. Əsas geodeziya alətlərini tanıyır və quruluşlarına görə fərqləndirməyi bacarır. |
| 3. Nivelirləmənin növünü və üsullarını izah edir. |
| 4. Teodolitin quruluşunu və teodolitlə bucaqların ölçülməsini izah edə bilir. |
| **Təlim nəticəsi 6: Faydalı qazıntı yataqlarının açıq və yeraltı üsulla işlənməsi zamanı markşeyder işləri ilə bağlı əsas anlayışları bilir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Markşeyder işlərini izah edə bilir. |

| |
|---|
| 2. Dağ işlərinin geoloji və markşeyder təminatı haqqında məlumatlıdır. |
| 3. Faydalı qazıntı yataqlarının açıq və yeraltı üsulla işlənməsi zamanı markşeyder işlərini fərqləndirməyi bacarır. |
| 4. Dağ qazmalarında bucaqların ölçülməsi zamanı köməkçi işləri yerinə yetirməyi bacarır. |
| 5. Yeraltı dağ qazmalarında yüksəkliklərin çəkilişini izah edə bilir. |

| **Modulun adı: Faydalı qazıntıların açıq üsulla çıxarılması zamanı yardımçı işlər** |
|---|
| **Modulun kodu: 10** |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə açıq yataqlar və onların xüsussiyyətlərini, aparılan faydalı qazıntılar zamanı yardımçı işlərin rolunu, habelə, açıq yataqlarda aparılan qazıntı işlərinin ardıcıllığını, qazma əməliyyatının əl və ya maşınla icra üsullarını, əməliyyatı icra edən mühərrikin iş prinsipini, qazmadan əvvəl yataqlarda aparılan kəşfiyyat işlərini, işlədilmə üçün ayrılan hissənin eni, uzunluq və dərinliyini sərbəst şəkildə ölçməyi və ölçməyə əsasən faydalı qazıntıların miqdarını hesablamağı bacaracaqdır. |
| **Təlim nəticəsi 1: Karyerlərdə açılma və çıxarılma əməliyyatları zamanı görülən əsas və yardımçı işlərin texnologiyasını bilir və onları yerinə yetirməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Faydalı qazıntıların çıxarılma üsullarını və karyerin elementlərini sadalayır. |
| 2. Açıq dağ-mədən işlərinin obyektlərini, elementlərini, əsas anlayış və terminlərini bilir. |
| 3. Açılma və çıxarılma zamanı görülən yardımçı işlərin ardıcıllığını sadalayır. |
| 4. Açılma və çıxarılma zamanı baş verə biləcək bədbəxt hadisələrdən mühafizə üsullarını təsvir edir. |
| 5. Açılma və çıxarılma zamanı görülən yardımçı işləri ardıcıllıqla yerinə yetirir. |
| **Təlim nəticəsi 2: Yardımçı işlər zamanı ətraf mühitin qorunması ilə bağlı ümumi anlayışları bilir və iş prosesində onları yerinə yetirməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Qanunvericilikdə ətraf mühit haqqında qəbul edilən qərarları sadalayır. |
| 2. Ekoloji tarazlıqla bağlı araşdırma aparır. |
| 3. Karyerlərdə açılma və çıxarılma zamanı ətraf mühitə dəyə biləcək ziyanı qismən dəyərləndirir. |
| 4. Ətraf mühitə dəyən ziyanı aradan qaldırır. |

| |
|---|
| **Təlim nəticəsi 3: Elektik işlərində istifadə olunan avadanlıqla işləyə bilir və iş prosesində onları düzgün tətbiq etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Karyerlərdə elektrik şəbəkələrinin quraşdırılması üsullarını izah edir. |
| 2. Karyerlərdə istifadə olunan elektrotexniki qurğular, elektrik mühərriklərini sərbəst şəkildə işə salır. |
| 3. Tətbiq sahəsinə, istismar üsuluna görə istifadə olunan elektrik avadanlıqlarını fərqləndirir. |
| 4. Açıq dağ-mədən işlərində elektrik şəbəkəsinə sərbəst nəzarət edir. |
| 5. Elektrik cərəyanının dərəcəsinə görə elektrik şəbəkəsinin xüsusiyyətlərini izah edir |
| 6. Karyerlərdə elektriklə zədələnmənin səbəblərini, ondan qorunma və elektrik cərayanından xəsarət alan insana ilkin yardım üsullarını bilir. |
| **Təlim nəticəsi 4: Yardımçı işlər zamanı istifadə olunan nəqliyyat vasitələri, texnoloji avadanlıqlar və mexanizmlər barədə bilir və lazım olduqda onlara qulluq etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Açılma və çıxarılma əməliyyatları zamanı mövcud nəqliyyat vasitələri, texnoloji avadanlıqlar və mexanizmlərin iş prinsipini sadalayır. |
| 2. Cavabdeh olduğu zonada avadanlıq və mexanizmlərə nəzarət edir. |
| 3. Karyerlərdə drenaj işləri zamanı istifadə edilən nasoslar, hidroelevator və elevatorlara qulluq edir. |
| 4. Karyerlərdə qazıma və açılma işləri zamanı avadanlıqları yağlayır. |
| 5. Gigiyena, işıqlandırma, yanğın və elektrik təhlükəsizliyi üzrə tələblərə əməl edilməsini yoxlayır. |

| |
|---|
| **Modulun adı: Ümumi xarakterli dağ-hazırlıq işləri** |
| **Modulun kodu: 11** |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə metalların növ və xüsusiyyətlərini, yataq və mədənlərdə aparılan faydalı qazıntı işlərinin texnoloji ardıcıllığını, partlayıcı maddələrlə bağlı ilkin anlayışları, onların növ və xassələrini biləcək, habelə, faydalı qazıntılar aşkar edildiyi təqdirdə orada qazma işlərini təhlükəsizlik qaydalarına uyğun şəkildə |

| |
|---|
| tətbiq etməyi bacaracaqdır. |
| **Təlim nəticəsi 1: Metallar və qeyri-metallar haqqında ümumi anlayışları bilir və iş prosesində onları ayırd etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. İstifadə olunan avadanlıqların istehsalında işlədilən metalları xarakterizə edir. |
| 2. Qara və əlvan metalların oxşar və fərqli cəhətlərini sadalayır. |
| 3. Filizlər və qeyri-filiz mineral xammal materiallarını fərqləndirir. |
| **Təlim nəticəsi 2: Qazıma işləri zamanı istifadə olunan partlayıcı maddələr haqqında məlumatı bilir və onlardan qismən istifadə etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Partlayıcıların rolu və vəzifəsini xarakterizə edir. |
| 2. Partlayış yerlərini təhlükəsizlik qaydalarına riayət edərək partlayışa qismən hazırlayır. |
| 3. Partlayış üçün məsul şəxsin rəhbərliyi altında partlayıcı maddəni lazımi yerə gətirir. |
| **Təlim nəticəsi 3: Qazıma partlayış işlərinə hazırlıq qaydalarını bilir və yardımçı işləri yerinə yetirməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Qazıma-partlayış işlərinin texnoloji əsaslarını bilir və hazırlıq mərhələlərini sadalayır |
| 2. Qazıma partlayış işlərinə hazırlıq mərhələlərini sadalayır. |
| 3. Qazıma partlayış işlərində məsul şəxsin rəhbərliyi altında yardımçı işləri yerinə yetirir. |
| 4. Partlayışda yardımçı və hazırlıq işləri zamanı zədə alanlara ilkin yardım göstərir. |
| **Təlim nəticəsi 4: Şaxtalarda istifadə olunan texnoloji avadanlıq və partlayıcıları qiymətləndirməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Şaxtalarda istifadə olunan texnoloji avadanlıqları və mexanizmləri təsnif edir. |
| 2. Texnoloji avadanlıqlar və mexanizmlərə qulluq edir. |
| 3. Şaxtalarda suyun vurulması üçün istifadə olunan nasoslara qulluq edir. |

| |
|---|
| **Modulun adı: Faydalı qazıntıların yeraltı üsulla işlənməsində açılış, hazırlıq, təmizləmə və kompleks yardımçı işlər** |
| **Modulun kodu: 12** |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə dağ işlərində aparılan |

| |
|---|
| yardımçı əməliyyatları, onları yerinə yetirərkən yanğınsöndürmə üsullarını, qəza baş verən zaman xəsarət alana ilkin yardım göstərmək qaydalarını, nasazlıq baş verərkən təmir işləri aparmaq qaydalarını və təmizləmə işlərində istifadə olunan avadanlıqlarla işləmək qaydalarını bilir və bütün bunları tam və ya qismən yerinə yetirməyi bacaracaqdır. |
| **Təlim nəticəsi 1: Dağ-mədən müəssisələri, yeraltı dağ qazmaları haqqında ümumi anlayışları bilir və onları fərqləndirməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Dağ-mədən müəssisələrini təsəvvür edir, yeraltı qazmaların adlarını və onların təyinatını sadalayır. |
| 2. Faydalı qazıntı yataqlarının yeraltı açılma, hazırlanma və dağ qazmalarının keçirilmə üsullarını bilir. |
| 3. Açılış və hazırlıq qazmalarının bağlanıb bərkidilməsi üsullarını bilir və lazım olan bağlayıb bərkitmə materiallarını sadalayır. |
| 4. Yatağın işlənməsini, işlənmənin mərhələlərini bilir və faydalı qazıntının təmizlənib şıxarılmasını qiymətləndirməyi bacarır. |
| 5. Filizin buraxılması, yüklənməsi, daşınmasını və nəqliyyatı proseslərini bilir və iş prosesində onları fərqləndirməyi bacarır. |
| 6. Faydalı qazıntı yataqlarının yeraltı üsulla işlənməsində köməkçi istehsalat proseslərini bilir və onları qismən yerinə yetirir. |
| **Təlim nəticəsi 2: Faydalı qazıntıların çıxarılması zamanı yanğın təhlükəsizliyi və ilkin yardım göstərmək qaydalarını bilir və hadisə zamanı lazım olan yardımçı işləri yerinə yetirməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Çıxarılan filizin tərkibində ola bilən alışan maddələri sadalayır. |
| 2. Yanğından zədələnmələr zamanı ilkin yardım göstərir. |
| 3. Yanğından sonra ətrafa dəyən zərəri aradan qaldırır. |
| **Təlim nəticəsi 3. Dağ işlərində təmiri qismən yerinə yetirməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Dağ işlərində təmiri qismən yerinə yetirir. |
| 2. Təmir işlərində istifadə olunan avadanlıqların iş prinsipini sadalayır. |
| 3. Təmir işləri zamanı yanğının baş vermə səbəblərini şərh edir. |

| |
|---|
| 4. Dəzgahların yoxlanılıb sazlanması üçün alətləri tanıyır. |
| **Təlim nəticəsi 4: Şaxtalarda havanın saflaşdırılması üçün istifadə olunan avadanlıqları tanıyır və mədən atmosferinin vəziyyətini qiymətləndirməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Şaxtalarda istifadə edilən havadəyişmə avadanlıqlarını və üsullarını təsnif edir. |
| 2. Ventilyasiya qurğuları və avadanlıqları ilə işləməyi bilir və onlara qulluq etməyi bacarır. |
| 3. Mədən havasının tərkibinə və komfort şəraitə nəzarət yollarını bilər. |
| 4. Mədən atmosferinin zərərli qarışıqlarını sadalayır, onlarla zədələnənlərə ilkin yardım göstərməyi bacarır |
| 5. Yeraltı qazmaların havasının dəyişirilmə üsullarını və onların tətbiq şəraitini bilir. |

| |
|---|
| **Modulun adı: İstehsalat təlimi** |
| **Modulun kodu: 13** |
| **Modulun məqsədi:** |
| **Təlim nəticəsi 1:** Dağ mədən işləri zamanı lazımi qrafik və sxemlərini, təhlükəsizlik texnikaları qaydalarına riayət etməyi bacarır. |
| **Qiymətləndirmə meyarı** |
| **1.** İş yerində əməyin mühafizəsi və texniki təhlükəsizlik iş üsullarına riayət edir. |
| **2.** Açılma və çıxarılma zamanı baş verə biləcək bədbəxt hadisələrdə mühafizə üsullarını tətbiq edir. |
| **3.** İstehsal sahələri və istehsal meydançaları ilə bağlı təhlükəsizlik tələblərini sadalayır. |
| 4. İş şəraitində verilən tapşırıqları sxem və çertyojlardan oxuyur. |
| **Təlim nəticəsi 2:** Dağ-mədən müəssələrində geologiya və ümumi xarakterli dağ hazırlıq işlərini bacarır. |
| **Qiymətləndirmə meyarı** |
| **1.** Yerin quruluşu, maqmatik,metomorfik,çökmə suxurların yaranma şəraitinə görə ayırd edir. |
| **2.** Faydalı qazıntıların axtarış və kəşfiyyat işlərinin mərhələlərini görür. |
| **3.** Faydalı qazıntılar haqqında ümumi məlumatları, faydalı qazıntıların çıxarılma üsullarını ayırd edir. |
| **4.** Qazma işləri zamanı istifadə olunan partlayıcı maddələr haqqında məlumatlıdır və |

| |
|---|
| onlardan qismən istifadə edir. |
| 5. Qazma partlayış işlərinə hazırlıq qaydalarını bilir və yardımçı işləri yerinə yetirir. |
| 6. Şaxtalarda istifadə olunan texnoloji avadanlıq və partlayıcıları qiymətləndirir. |
| **Təlim nəticəsi 3**: Faydlı qazıntıların açıq və yeraltı üsulla işləməsində açılış,hazırlıq,təmizləmə, kompleks yardımçı işləri bacarır. |
| **Qiymətləndirmə meyarı** |
| 1. Açıq dağ-mədən işlərində faydalı qazıntıların çıxarılma üsullarını və karyerin elementlərini sadalayır. |
| 2. Açılma və çıxarılma zamanı görülən yardımçı işlərin ardıcıllığını sadalayır. |
| 3. Açılma və çıxarılma əməliyyatları zamanı mövcud nəqilyyat vasitələri,texnoloji avadanlıqlar və mexanizmlərin iş prinsipini sadalayır. |
| 4. Dağ-mədən müəssələrini təsəvvür edir,yeraltı qazmaların adlarını və onların təyinatını sadalayır. |
| **Təlim nəticəsi 4**.Dağ-mədən işlərində istifadə olunan materiallar, elektirik qurğularının və elektrotexniki təchizatı bilir |
| **Qiymətləndirmə meyarı** |
| **1.** Dağ-mədən işlərində İstifadə olunan avadanlıqların istehsalında işlədilən metalları xarakterzə edir. |
| **2.** Açılış və hazırlıq qazmalarının bağlanıb bərkidilməsi üsullarını və lazım olan bağlanıb bərkitmə materiallarını sadalayır. |
| **3.** Karyerdə elektirik şəbəkələrinin quraşdırılması üsullarını izah edir. |
| **4.** Karyerdə istifadə olunan elektrotexniki qurğuları,elektirik mühərriklərini sərbəst şəkildə işə salır. |

| |
|---|
| **Modulun adı: İstehsalat təcrübəsi (iş yerində öyrənmə)** |
| **Modulun kodu: 14** |
| **İş yerində öyrənmənin ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə dağ-mədən işlərində avadanlıqlardan istifadə etməyi, onlara lazımi qulluq göstərməyi, təmir etməyi və iş prosesində yardımçı əməliyyatları yerinə yetirməyi bacaracaqdır. |
| **Hüquqi şərtlər və müqavilə:** |
| **Təlim nəticəsi 1: Geodeziya cihazlarının istismarı zamanı meydana gələn nasazlıqları aradan qaldırmağı bacarır.** |

| Qiymətləndirmə meyarları |
| --- |
| 1. Teodolit, Nevelir, dağ kompası, markşeyder cihazlarından istifadə edir. |
| 2. Markşeyder çəkilişlərini və nevelirləməni yerinə yetirir. |
| 3. İş prosesində meydana gələn nasazlıqları aradan qaldırır. |
| 4. Markşeyder əməliyyatları zamanı baş verən zədələnmələrdə ilkin yardım göstərir. |
| **Təlim nəticəsi 2: Şaxtalarda və karxanalarda açılma və çıxarılma əməliyyatlarında köməkçi işləri yerinə yetirməyi, elektrik işlərində lazım olan avadanlıqları tətbiq etməyi və nəqliyyat vasitələri, texnoloji avadanlıqlara qulluq etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Açılma və çıxarılma zamanı görülən köməkçi işlərin ardıcıllıqla yerin yetirir. |
| 2. Şaxtalarda istifadə olunan elektrotexniki qurğular, elektrik mühərrikləri, işəburaxıcıları sərbəst şəkildə işə salır. |
| 3. Açıq dağ-mədən işlərində elektrik şəbəkəsinə sərbəst nəzarət edir. |
| 4. Açılma və çıxarılma əməliyyatları zamanı mövcud nəqliyyat vasitələri, texnoloji avadanlıqlar və mexanizmlərə texniki xidmət göstərir. |
| 5. Lazımsız kənar və ya böyük əşyaların qaldırılmasında istifadə olunan qurğulara qulluq edir. |
| **Təlim nəticəsi 3: Dağ-mədən çalışmalarında yardımçı əməliyyatları yerinə yetirərkən mövcud təhlükəsizlik və ilkin yardım qaydalarını tətbiq etməyi və lazım olduqda təmir işlərini həyata keçirməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Yanğından zədələnmələr zamanı ilkin yardım göstərir. |
| 2. Yer təkinə gətirilən qarışığı ələyib təmizləyir. |
| 3. Yer təkinə gətirilən qarışığın yuyulub cilalanmasını icra edir |
| 4. Laboratoriyaya gətirilən faydalı qazıntıların kimyəvi, spektial və əyar təhlilini aparır. |
| 5. Dağ işlərində təmiri qismən yerinə yetirir. |
| 6. Dəzgahların yoxlanılıb sazlanmasını icra edir. |

## Təhsil proqramlarına dair qeydlər

1. Ümumi orta təhsil bazasından qəbul olunmuş və texniki peşə təhsili ilə yanaşı, tam orta təhsil alanlar üçün təşkil edilən qruplarda peşə təhsilinin dövlət standartında göstərilmiş "Ana dilində ünsiyyət" səriştəsi "Azərbaycan dili", "Xarici dildə ünsiyyət" səriştəsi "Xarici dil", "İnformasiya texnologiyaları" səriştəsi "İnformatika", "Hesablama əməliyyatlarını yerinə yetirmə" səriştəsi isə "Riyaziyyat" fənni proqramına inteqrasiya olunmuş şəkildə, həmçinin ixtisasın tələbləri nəzərə alınmaqla uyğunlaşdırılmış proqram əsasında tədris edilir.
2. Tələbələrin sayı 15 (on beş) və daha çox olan qruplarda müvafiq maddi-texniki baza və ixtisas müəllimləri olduğu halda aşağıdakı fənlərin tədrisi 2 (iki) qrupa bölünə bilər:
   2.1. tədris digər dillərdə aparılan siniflərdə "Azərbaycan dili - dövlət dili kimi";
   2.2. tədris dilindən asılı olmayaraq bütün siniflərdə "Xarici dil", "Fiziki tərbiyə".
   2.3. "İnformatika" fənni üzrə praktiki məşğələlər.
3. İnformatika kabineti olmayan peşə təhsili müəssisələrində "İnformatika" fənni üzrə praktik məşğələ keçirilmir.
4. "Xarici dil" fənnində tədrisi nəzərdə tutulan xarici dilin seçimi zamanı tədris qruplarında təhsil alan tələbələrin mütləq çoxluğunun nəzərə alınaraq ümumtəhsil pilləsində təhsil aldıqları "əsas xarici dil" əsas götürülür.
5. Tədris ilinin birinci yarısında qrupda tələbələrin sayının azalması tədris planı ilə müəyyən edilmiş müvafiq fənlərin tədrisində qrupun iki qrupa bölünməsinə məhdudiyyət yaratmır.
6. Pilot peşə təhsil müəssisələrində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 mart tarixli 86 nömrəli qərarı ilə təsdiq edilmiş "Peşə təhsili müəssisələrinin ayrı-ayrı peşə istiqamətləri üzrə tədris qruplarında orta sıxlığın müəyyən edilməsi haqqında" qərarın 3-cü bəndinə uyğun olaraq tədris qruplarında təhsilalanların sayı 16 nəfərdən çox olduqda, laboratoriya və istehsalat təlimi dərslərində qruplar 2 yarımqrupa bölünə bilər. Pilot peşə təhsil müəssisələrinin siyahısı Peşə Təhsili üzrə Dövlət Agentliyi tərəfindən müəyyən edilir.
7. Pilot peşə təhsili müəssisələrində və pilot layihələrdə "Peşə təhsili haqqında" qanunun 11.2. maddəsinə müvafiq olaraq işəgötürənlərin istehsalat təcrübəsinə rəhbər təyin etdiyi mütəxəssislərə təhsil müəssisəsi tərəfindən təcrübə saatları üçün nəzərdə tutulmuş haqq ödənilə bilər. Pilot peşə təhsil müəssisələri və pilot layihələrin siyahısı Peşə Təhsili üzrə Dövlət Agentliyi tərəfindən müəyyən edilir.
8. Nəqliyyat vasitələri sürücülərinin hazırlanması həyata keçirən ixtisaslar üzrə tədris Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 41 nömrəli qərarı ilə təsdiq edilmiş "Nəqliyyat vasitələri sürücülərinin hazırlanması və onların ixtisasının artırılması kursları haqqında Əsasnamə" (mövcud dəyişikliklərlə) əsasında, həmçinin Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə razılaşdırılmış, Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş müxtəlif kateqoriyalı avtomobil nəqliyyatı vasitələri sürücülərinin hazırlanması üçün mövcud tədris plan və proqramlarına uyğun aparılır.
9. Traktorlar və digər mexaniki nəqliyyat vasitələrini idarə etmək üçün sürücü hazırlayan ixtisaslar üzrə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Kollegiyasının 30 may 2012-ci il

tarixli 05/2012-1 nömrəli Qərarı ilə təsdiq edilmiş “Traktorlar və digər mexaniki nəqliyyat vasitələrini idarə etmək üçün imtahanların qəbulu və sürücülük vəsiqəsinin verilməsi haqqında təlimat” (mövcud dəyişikliklərlə) və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 41 nömrəli qərarı ilə təsdiq edilmiş “Nəqliyyat vasitələri sürücülərinin hazırlanması və onların ixtisasının artırılması kursları haqqında Əsasnamə” (mövcud dəyişikliklərlə) əsasında, həmçinin traktor və digər mexaniki nəqliyyat vasitələrini idarə etmək üçün sürücülərin hazırlanması və onların ixtisasının artırılması proqramı üzrə təlim kursunun tələblərinə uyğun aparılır.

10. Dual və axşam qrupları üçün hazırlanmış tədris planları tətbiq edilən peşə təhsil müəssisələri və qrupların (ixtisasların) siyahısı Peşə Təhsili üzrə Dövlət Agentliyi tərəfindən müəyyən edilir.
11. Kənd təsərrüfatı istiqaməti üzrə olan ixtisasların bəzilərində seçmə modulu kimi təqdim olunan modullar seçilərkən regionun iqtisadi xüsusiyyəti nəzərə alınır.
12. STEM Mərkəzi yaradılmış peşə təhsil müəssisələrində tədris olunan bütün ixtisaslar üzrə həftədə 2 (iki) saat olmaqla “Stem” fənni əlavə olaraq tədris olunur.